## Noyabr ayında Azərbaycana 13.3% çox xarici vətəndaş gəlib

Noyabr ayında Azərbaycana səyahət edən xarici vətəndaşların sayı 2018-ci ilin eyni ayı ilə müqayisədə 13.3% artaraq 241 minə çatıb. Bu ilki artım 2018-ci ilin noyabr artımından (6%) iki dəfə çoxdur. Gələnlərin sayına görə 69 minlə Rusiya, 68 minlə Gürcüstan ən yüksək göstəricilərə malikdirlər. Qeyd edilməlidir ki, gələnlərin yarıdan çoxunu, yəni 56.7%-ni bu iki ölkənin vətəndaşları təşkil edib. Faiz göstəricilərinə görə ən yüksək artım tempi müvafiq olaraq 33.5%, 40.1% və 35.5% ilə İran, eləcə də Cənubi və Mərkəzi Asiya ölkələri üçün müşahidə olunur. Cənubi Asiya ölkələri arasında Hindistandan gələnlər arasında 76.3% göstərici ilə nəzərəçarpan artım qeydə alınıb. Türkiyə və Yaxın Şərqdən gələnlərin sayı isə 3.4 min və 2 min nəfər artaraq müvafiq olaraq 27 min və 17 min nəfər təşkil edib.

**Qrafik 1: 2019 və 2018-ci ilin noyabr ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı 2018-ci ilin eyni dövrü ilə müqayisədə 11.1% və ya 292 min nəfər artıb. Bu artım da 2017-ci ildən 2018-ci ilə olan artımdan 6%, təqribən iki dəfə çoxdur. Xarici ölkələrdən gələnlərin üçdə birini Rusiya vətəndaşları təşkil edib. Belə ki, 2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə Rusiyadan gələnlərin sayı 49 min və ya 6% artaraq 866 min nəfər olub. Ən yüksək artım müvafiq olaraq 20.2%, 46.7% və 38% daha çox Gürcüstan, Mərkəzi və Cənubi Asiya ölkələrindən müşahidə edilib. Ümumilikdə isə dövr ərzində bu ölkələrdən 661 min, 120 min və 107 min nəfər ziyarətçi gəlib.

Əvvəlki aylarda olduğu kimi Orta Asiya ölkələri arasında ən çox əcnəbi qonaq Türkmənistan (49 min; 91.9%-lə əhəmiyyətli artım) və Qazaxıstandan (43 min; 24.5% artım), Cənubi Asiya ölkələrindən isə Hindistan (59 min; 67.7%-lə əhəmiyyətli artım) və Pakistandan (42 min; 12.2% artım) gəlib. Türkiyə və İrandan gələn xarici qonaqların sayı müvafiq olaraq 8.3% və 3.7% artaraq 289 və 235 min nəfərə çatıb.

Yaxın Şərq bölgəsində isə 4% azalma qeydə alınıb. Belə ki, İsrail (14.5% artım) və Səudiyyə Ərəbistanı (46.5% artım) istisna olmaqla, demək olar ki, digər Yaxın Şərq ölkələrindən gələnlərin sayında azalma müşahidə olunub.

Yanvar-noyabr dövrü ərzində turizm nümayəndəliklərinin olduğu ölkələrdən (Çin, Hindistan, Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı, BƏƏ) Azərbaycana 93 min və ya 9% daha çox əcnəbi qonaq gəlib. Ən yüksək artım Hindistan, Çin və Səudiyyə Ərəbistanında müşahidə edilib. BƏƏ-dən gələn qonaqların sayı isə 29.8% azalıb.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-noyabr ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin noyabr ayında və 2019-cu ilin yanvar-noyabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | Noyabr | Yanvar-Noyabr | Noyabr | Yanvar-Noyabr |
| Rusiya | 68 921 | 866 556 | 65 781 | 817 689 |
| Gürcüstan | 67 954 | 661 430 | 61 014 | 550 422 |
| Türkiyə | 27 317 | 289 145 | 23 881 | 266 978 |
| Yaxın Şərq | 17 637 | 332 119 | 15 674 | 345 534 |
| İran | 15 901 | 235 193 | 11 907 | 226 897 |
| Cənubi Asiya | 11 799 | 107 236 | 8 419 | 77 700 |
| Mərkəzi Asiya | 10 481 | 120 855 | 7 734 | 82 366 |
| Şərqi Avropa | 8 203 | 101 969 | 7 212 | 92 961 |
| Qərbi Avropa | 7 407 | 109 548 | 6 280 | 91 038 |
| Şimal-şərqi Asiya | 1 775 | 39 678 | 1 359 | 28 092 |
| Amerika | 1 605 | 27 289 | 1 641 | 24 981 |
| Cənub-şərqi Asiya | 1 221 | 11 461 | 847 | 8 531 |
| Afrika | 640 | 9 189 | 668 | 7 660 |
| Digər | 518 | 9 643 | 565 | 8 056 |
| **Cəmi** | **241 379** | **2 921 311** | **212 982** | **2 628 905** |